ROKOL® BİNDER ASTAR 100

*İstifadəyə hazır*



**Məhsul haqqında**
Akrilik əsaslı, məhsulun istifadə imkanlarını artıran qatqılarla zəngin, istifadəyə hazır duru mayedir.

**İstifadə sahələri**
Bu astardan:
• gips, beton, suvaq, döşəmə suvağı, ağac kimi səthlərin suhopma qabiliyyətini azaltmaqla sement əsaslı materialların yapışma qabiliyyətinin artırılmasında;
• köhnə səthlərin üzərində görüləcək üzlük tamamlama işlərindən əvvəl;
• daha yaxşı nəticə əldə etmək məqsədi ilə keramika, üzlük plitə, səviyyə alma qarışığı (Şap), izolyasiya, boya kimi materialları istifadə etməmişdən əvvəl istifadə olunur.

**Üstünlükləri**
• istifadəyə hazırdır;
• istifadə olunacaq səthlərin qopub tökülməsinə və sonradan çatlar əmələ gəlməsinə yol vermir;
• məhsuldarlığı artırır;
• materialların sərfinə qənaət edir.

**İstifadə qaydaları**
***Səthin hazırlanması.*** İstifadə olunacaq səthlərin sağlam, quru, təmiz və ölçülərinin düzgün olmasına diqqət edilməlidir. Səth yapışma müqavimətini zəiflədən hər növ yağ və parafin qalıqlarından tamamilə təmizlənməlidir.

***Tətbiqi.*** ROKOL BİNDER ASTAR 100 məhsulunu istifadədən əvvəl çalxalayın və səthə vərdənə və ya fırça ilə çəkin. Qurumayana qədər üzərində heç bir iş görməyin. Maddənin quruma müddəti 45-60 dəqiqədir. Gips kimi suhopma qabiliyyəti yüksək olan məhsulların üzərinə 2 qat çəkin.

***Tövsiyələr.*** ROKOL BİNDER ASTAR 100 məhsulunun istifadə olunduğu səthin temperaturu +5$^0$C-dən aşağı və +30$^0$C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti (+30$^0$C-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. İstifadədən sonra bütün alət və ləvazimatlar su ilə təmizlənməlidir.

**Texniki göstəricilər**

| | |
|---|---|
| Rəngi | ağ rəngli maye |
| İstifadə temperaturu | +5$^0$ C – +30$^0$ C |
| Quruma müddəti (+23$^0$C temperaturda) | 45-60 dəqiqə |
| Həcm kütləsi | 0,98 kq/l |
| Qablaşdırma | 1; 4 və 10 litrlik plastik bidonlarda |

**Sərfiyyat**
1 m$^2$ səthə sərfiyyat 150 qramdır. 1 litrlik ROKOL BİNDER ASTAR 100 məhsulu təxminən 6-7 m$^2$ səthin astarlanmasına sərf olunur.

**Saxlama müddəti və qaydası**
Açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
• astarın mürəkkəb tərkibli qarışıq olduğunu nəzərə alaraq dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun;
• istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
• yuxarıdakı göstəricilər +23$^0$C±2$^0$C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!